

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı


Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 162 (23.324)

*31 avqust 2019-cu il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda Türkiyənin Zəfər Bayramı qeyd olunub



*Avqustun 30-da Türkiyə Respublikasının Zəfər Bayramı və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə Türkiyənin Naxçıvandakı Baş Konsulluğu tərəfindən rəsmi qəbul təşkil edilib.*

Tədbirdə Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilib. Sonra Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Türkiyə Respublikasının Zəfər Bayramı və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə Türkiyənin xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə göndərdiyi təbriki oxunub.

Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz çıxış edərək Türkiyə Respublikasının Zəfər Bayramı və Türkiyə Silahlı Qüvvələri Gününün tarixindən, eləcə də ölkəsinin müasir inkişafından danışıb. Türkiyə-Azərbaycan ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini bildirən Baş konsul ölkələrimiz arasındakı əlaqələrin tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikası ilə əməkdaşlığın ilbəil genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov rəsmi qəbulda çıxış edərək deyib: Azərbaycan-Türkiyə dost və qardaş ölkələrdir. Xalqlarımız arasındakı tarixi köklərə əsaslanan birlik və bərabərlik bu gün daha da möhkəmlənib, ikitərəfli münasibətlərimiz strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu əlaqələrin inkişafında Naxçıvan Muxtar Respublikasının mühüm yeri və rolu vardır. Xüsusilə ordu quruculuğu sahəsindəki əməkdaşlıq məmnunluq doğurur.

Ali Məclis Sədrinin birinci müavini Zəfər Bayramının 97-ci ildönümü və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib.

**“Şərq qapısı”**

## Muzeylərimiz fəaliyyətini günün tələbləri səviyyəsində qurur

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyindən aldığımız məlumata görə, diyarımızda fəaliyyət göstərən muzeylərin işinə cari ildə diqqət daha da artırılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” 2014-cü il 19 dekabr tarixli Sərəncamına uyğun olaraq tərtib edilmiş qrafikə əsasən muxtar respublikanın 50-yə yaxın nazirlik, komitə və baş idarə əməkdaşlarının, ali və orta ixtisas təhsili müəssisələrinin müəllim və tələbə kollektivlərinin, idman federasiyaları üzvlərinin, sahibkarlıq subyektlərinin, taksi sürücülərinin muzeylərlə tanışlığı təmin edilib. Azərbaycanın digər bölgələrindən və xarici ölkələrdən muxtar respublikamıza səfər edən qonaqların, rəsmi nümayəndə heyətlərinin muzeylərlə tanışlığı zamanı onlara nümunəvi muzey xidməti göstərilməsinə ciddi önəm verilib.

Muzey bələdçilərinin peşə biliklərinin artırılması, muzey işçilərinin bütün muzeyləri tanımaları məqsədilə seminar-treninq və dəyirmi masaların da təşkili diqqət mərkəzində saxlanılıb.

Ötən dövr ərzində muzey fondlarının yeni eksponatlarla zənginləşdirilməsi işi diqqətdə saxlanılıb. Şərur Rayon Tarix-Diyarşünaslıq, “Əlincəqala” Tarix-Mədəniyyət, Naxçıvan Dövlət Tarix, Ordubad Rayon Tarix-Diyarşünaslıq muzeylərində vətəndaşlar və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən nazirliyə hədiyyə olunmuş maddi mədəniyyət nümunələrinin, həmçinin Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinovun muzeylərə verdiyi rəsm əsərlərinin təqdimatları keçirilib. Nazirlik tərəfindən isə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Əlyazmalar İnstitutuna 45 ədəd qədim əlyazma və kitab hədiyyə edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Mədəniyyət, Təhsil, Rabitə və Yeni Texnologiyalar nazirlikləri tərəfindən təsdiq edilmiş “Təhsil müəssisələri ilə muzeylər arasında 2018-2019-cu tədris ilində təşkil ediləcək distant dərslərin Qrafiki”nə əsasən cari ildə muxtar respublikanın müxtəlif muzeylərindən ümumtəhsil məktəblərinin şagirdləri və Naxçıvan Dövlət Universitetinin tələbələri üçün, ümumilikdə, 12 distant dərs keçilib.

## Səyyar sığorta xidməti genişləndirilir



*Müasir dövrdə Naxçıvan Muxtar Respublikasında əhalinin bir sıra zəruri xidmət növlərinə çıxışının təmin edilməsində səyyar xidmətlərin əhəmiyyəti getdikcə artmaqdadır. Cari ilin mart ayından başlayaraq muxtar respublikada sığorta fəaliyyəti üzrə təşkil olunmuş səyyar xidmət də bu sahənin daha səmərəli təşkilinə yeni imkanlar yaradıb.*

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyindən aldığımız məlumata əsasən hazırda səyyar sığorta xidməti öz əhatə dairəsini genişləndirməkdədir. Belə ki, agentliyə təqdim olunmuş 2 ədəd səyyar xidmət avtomobili muxtar respublikanın müxtəlif yaşayış məntəqələrində vətəndaşların müraciətlərinə uyğun olaraq sığorta ərizələrinin qəbulu və müqavilələrin bağlanmasını mütəmadi şəkildə həyata keçirir. Səyyar xidmət avtomobillərində internetə qoşulmuş kompüter avadanlıqları vasitəsilə göstərilən xidmətlər muxtar respublikanın ən ucqar yaşayış məntəqələrində yaşayan əhalinin rayon mərkəzlərinə getmədən işlərinin həll olunmasına və vaxta qənaət edilməsinə imkan yaradır. Agentlikdən bildirdilər ki, səyyar sığorta xidmətinin yaradılmasından keçən müddət ərzində xidmət əməkdaşları Şərur, Babək, Ordubad, Şahbuz, Kəngərli, Sədərək rayonları və habelə Naxçıvan şəhərinin bütün ərazisi üzrə 73 inzibati ərazi dairəsində vətəndaşların müraciətinə baxıb, sığorta müqavilələri bağlanılıb.

Bağlanan sığorta müqavilələri, əsasən, muxtar respublikada həyata keçirilən bütün növ icbari və könüllü sığortaları əhatə edir.

Məlumat üçün qeyd edək ki, hazırda muxtar respublikanın rayon Dövlət Sığorta agentlikləri 4 icbari və 7 könüllü sığorta üzrə fəaliyyətlərini həyata keçirir. Səyyar sığorta xidmətinə edilən müraciətlərin isə ən çox vətəndaşlara məxsus daşınmaz əmlakın, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortaları, habelə kənd təsərrüfatı bitkiləri və heyvanların sığortası, fərdi qəza, ev əmlakı sığortası olduğu diqqəti çəkir. Dövlət Baş Sığorta Agentliyindən aldığımız məlumatda bildirilir ki, səyyar sığorta xidmətləri muxtar respublikada ümumi sığorta maarifləndirməsinin aparılmasında və sığortanın inkişafında da mühüm rol oynayır.

**✍ Əli CABBAROV**

## Əmək hüquqları qorunur

Qeyri-formal məşğulluğun qarşısının alınması, işəgötürülən şəxslərlə əmək müqavilələrinin bağlanması və əməkhaqlarının reallığı əks etdirməsi ilə əlaqədar həyata keçirilən nəzarət tədbirləri nəticəsində cari ilin 8 ayı ərzində əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işə cəlb edilən 371 işçi aşkar edilib, əmək münasibətlərinin rəsmiləşdirilməsi üçün işəgötürənlərə xəbərdarlıq edilib. 43 halda isə əməkhaqqının real göstərilməsinə nail olunub.

Müvafiq dövr ərzində, əməyin mühafizəsi tədbirləri davam etdirilib, işəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılması, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət edilməsi ilə əlaqədar 81 obyektə nəzarət həyata keçirilib, fərdi mühafizə vasitələrindən istifadə etməyən 37 işçi tikinti sahəsindən müvəqqəti uzaqlaşdırılıb, 73 işçi isə həmin vasitələrlə yerində təmin edilib. Əməyin mühafizəsini daha geniş şəkildə təbliğ etmək məqsədilə rüblük elektron jurnalın buraxılması keçirilib, əmək qanunvericiliyinin tətbiqinə dair maarifləndirici seminarlar davam etdirilib.

**Xəbərlər şöbəsi**

## Ənənəvi məktəbli yarmarkalarına start verilib

***Naxçıvan Muxtar Respublikası Təhsil və İqtisadiyyat nazirliklərinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Mərkəzi bazarda ənənəvi məktəbli yarmarkası təşkil olunub.***





Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxış edərək qeyd edib ki, muxtar respublikamızda bütün sahələr kimi, təhsil də dövlət qayğısı ilə əhatə olunub. Təhsil müəssisələri üçün yeni binaların tikilərək müəllim və şagirdlərin istifadəsinə verilməsi, məktəblərin ən müasir maddi-texniki baza ilə təchiz olunması, bacarıqlı pedaqoqların tədrisə cəlbi bu istiqamətdə həyata keçirilən əsas tədbirlərdəndir. Bütün bunlarla yanaşı, şagirdlərin məktəbli geyimləri və dərs ləvazimatları ilə təminatı da diqqət mərkəzində saxlanılır, hər il ənənəvi məktəbli yarmarkaları təşkil olunur. Nəticədə, valideynlərin də qayğıları xeyli azalır.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Naxçıvan şəhərində və rayonlarda məktəbli yarmarkaları fəaliyyətə başlayır. Belə yarmarkalar yeni tədris ili ərəfəsində şagirdlərin məktəbli geyimlərinə və dərs ləvazimatlarına olan tələbatlarının daha asan şəkildə təmin edilməsində mühüm rol oynayır. Həm qiymətlərin ucuzlaşmasına, həm də süni qiymət artımına nəzarətin güclənməsinə səbəb olan yarmarkalar övladlarını məktəbə yola salmağa hazırlaşan valideynlərin işini xeyli asanlaşdırır.

Qeyd edilib ki, yarmarkada dərs ləvazimatları, məktəbli və idman formaları, məktəbli çantası, ayaqqabılar və başqa ləvazimatlar alıcılara münasib qiymətlərlə təklif olunur. Sevindirici haldır ki, muxtar respublikada məktəbli geyimlərinə olan tələbat tam olaraq yerli istehsal hesabına ödənilir. Bu gün təşkil edilən məktəbli yarmarkalarında da muxtar respublikada istehsal olunmuş məktəbli geyimləri əhaliyə təklif edilir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev bildirib ki, həyata keçirilən məqsədyönlü və ardıcıl işlər nəticəsində muxtar respublikada sosial-iqtisadi inkişafla yanaşı, elmi intellektual tərəqqiyə nail olunub, ümumtəhsil məktəblərində kompüter və informasiya texnologiyalarının geniş tətbiqi həyata keçirilib. Dövlət büdcəsindən təhsilə ayrılan xərclərin ildən-ilə artırılması bu sahənin keyfiyyətcə yeniləşməsi üçün ardıcıl və sistemli tədbirlərin reallaşmasına imkan verir. Müəllim, tələbə və şagirdlərə vahid geyim formalarının tətbiqi, həmin malların keyfiyyətinə və təhsil ocaqlarında yerləşən ictimai iaşə obyektlərinə xüsusi diqqət yetirilməsi bu sahəyə göstərilən qayğının daha bir ifadəsidir.

Diqqətə çatdırılıb ki, İqtisadiyyat və Təhsil nazirliklərinin, şəhər və rayon İcra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərindəki mərkəzi bazarda və bütün rayon mərkəzlərində ənənəvi məktəbli yarmarkalarının təşkil olunmasında əsas məqsəd yeni tədris ili ərəfəsində orta məktəb şagirdlərinin məktəbli ləvazimatlarına olan ehtiyaclarını daha asan, rahat şəkildə təmin etməkdir.

Vurğulanıb ki, bu gün muxtar respublikada məktəbli geyimləri, köynək, ayaqqabı istehsalı üzrə 4 yüngül sənaye müəssisəsi fəaliyyət göstərir. Cari ildə də 3-ü istehsal müəssisəsi olmaqla, 24 sahibkarlıq subyektinin iştirak etdiyi yarmarkada dərs ləvazimatları, məktəbli və idman formaları, məktəbli çantası və başqa ləvazimatlar alıcılara münasib qiymətlərlə təklif olunur.

Sonra yarmarkaya gələnlər satışa çıxarılan məhsullarla tanış olublar. Satış yerlərinin hər birində məhsulların çeşid zənginliyi, keyfiyyəti, satış qiymətlərinin əlverişli olması, xidmətin təşkili alıcılar tərəfindən razılıqla qarşılanıb.

Qeyd edək ki, yarmarka Naxçıvan şəhəri, Şərur, Babək, Ordubad, Kəngərli, Şahbuz və Sədərək rayonlarının hər birində bir, Culfa rayonunda isə 3 ünvanda olmaqla, ümumilikdə, 10 ünvanda təşkil ediləcək və sentyabrın 15-dək davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## İnformasiya texnologiyalarının tədrisi diqqət mərkəzində saxlanılır

***İnsan təxəyyülünün inkişafında ən mühüm amillərdən biri də müasir biliklərə yiyələnməkdir. Müasir bilik dedikdə ağıla ilk gələn kompüterlər, eləcə də informasiya-kommunikasiya texnologiyalarıdır ki, bunlar da həyatımızın bütün sahələrinə dərindən nüfuz edir. Hazırda cəmiyyətin və onun bütün sahələrinin inkişafı yeni texnologiyaların intellektual imkanlarından və informasiya resurslarından geniş istifadə olunması ilə əlaqədardır. Qloballaşan cəmiyyətdə müasir insan həyatını bu texnologiyalarsız təsəvvür etmək qeyri-mümkündür. Bu gün muxtar respublikamızda da müasir texnologiyalardan geniş istifadə insanların informasiya tələbatlarının ödənilməsində, iqtisadiyyat, elm, təhsil, səhiyyə və digər sahələrin inkişafında mühüm əhəmiyyət kəsb edir. Mövzu ilə əlaqədar müraciət etdiyimiz Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin direktoru Vüqar Rəsulovla söhbət zamanı bunun bir daha şahidi olduq.***



Vüqar müəllim bildirdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 9 iyul tarixli Sərəncamına əsasən yaradılan Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində inzibati və təsərrüfat obyektləri, hüquqi və fiziki şəxslər, muxtar respublika əhalisi internetlə təmin edilir. Bununla yanaşı, yüksəkkeyfiyyətli internet xidmətləri, veb səhifələrin tərtibatı və hazırlanması, domen adların qeydiyyatı, elektron poçt və ünvanların ayrılması, server sahələrinin icarəyə verilməsi, şəbəkələrin layihələndirilməsi, qurulması kimi bir çox əhəmiyyətli işlər görülür. Həmçinin kompüter tədris proqramlarının və vəsaitlərinin hazırlanması, əhalinin, dövlət orqanlarının, ictimai birliklərin və digər hüquqi şəxslərin kompüter texnologiyasının tətbiqi ilə əlaqədar tələbatının kadr hazırlığı vasitəsilə ödənilməsi, hüquqi və fiziki şəxslərə fərdi kompüterlərin, proqram-texniki vasitələrin, elektron texnikası məhsullarının və onların tərkib hissələrinin, digər elektron məmulatların satışı və təmirinin təşkili, informatika təliminin texniki və proqram vasitələrinin işlənməsi, hazırlanması və tətbiqi mərkəzin əsas fəaliyyət sahələrindəndir. Mərkəzə müraciət edənlərə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi qarşıya qoyulan başlıca vəzifələrdən biridir.

Mərkəzin direktoru qeyd etdi ki, müəssisə əhaliyə göstərilən internet xidmətini əvvəllər “Delta Telekom” Məhdud Məsuliyyətli Cəmiyyəti ilə bağlanmış müqaviləyə əsasən xidmətin qlobal şəbəkəyə qoşulmasını təmin etmək üçün peyk vasitəsilə, 2005-ci ilin iyun ayından etibarən isə Trans Asiya-Avropa fiberoptik magistral xəttinə qoşulma yolu ilə həyata keçirir. Yüksəkkeyfiyyətli rabitə, internetə qoşulma tezliyi, əlverişli qiymətlər – bütün bunlar hamısı abunəçilərin rahatlığı üçün yaradılan dövlət qayğısıdır.



Müsahibimiz bildirdi ki, mərkəzdə, həmçinin İnformatika fənni də tədris olunur. Bunun da əsas məqsədi insanları kompüterlərin müasir vəziyyəti ilə, eləcə də ən son informasiya-kommunikasiya texnologiyalarının imkanları, tətbiqi dairələri ilə tanış etmək, onlarda həmin texnologiyalardan səmərəli istifadə sahəsində vərdişlər aşılamaqdır. Hazırda tədris mərkəzinin Şərur və Culfa şəhərlərində filialları fəaliyyət göstərir. Ötən dövrdə istər mərkəzin, istərsə də filialların maddi-texniki bazası möhkəmləndirilib, müasir avadanlıqlarla təchiz olunub. Görülən işlər burada tədrisə cəlb olunan dinləyicilərin bu sahədə dərin biliklərə yiyələnmələrində mühüm rol oynayır.

Mərkəzin direktor müavini Nəriman Sadıxov ilə də həmsöhbət olduq. O bildirdi ki, burada kompüter kursları ilə yanaşı, xarici dil kursları, həmçinin dövlət qulluğuna kadr hazırlığı üçün seminarlar da keçirilir. Mərkəzdə elektron lövhə vasitəsilə dövlət qulluğunda çalışan gənclər üçün peşəkar kadrlar tərəfindən açıq dərslər təşkil olunur. Bu da həmin gənclərin öz peşələri üzrə ixtisaslaşaraq daha böyük nailiyyətlər əldə etmələrinə imkan yaradır.

Müsahibimiz onu da qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarına əsasən muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrində müvafiq ixtisaslar üzrə təhsil alan tələbələr mərkəzdə praktik işlərlə təmin olunur, istehsalat təcrübələri keçirlər. 2018-ci ilin iyul ayından başlayaraq mərkəz tərəfindən müxtəlif dövlət qurumlarının, ümumilikdə, 158 nəfərdən ibarət əməkdaşına kompüter kurslarının tədrisi təşkil edilib.

Öyrəndik ki, mərkəzin ən böyük potensialı onun kadrlarıdır. Böyük iş təcrübəsinə malik olan ixtisaslı müəllimlər mərkəzə müraciət edən dinləyicilərin yüksək səviyyədə təhsil almaları üçün səylə çalışırlar. Peşəkar müəllimlər tərəfindən tədris olunan dərslər kurs iştirakçılarının informasiya texnologiyaları haqqında biliklərə yiyələnmələrinə imkan yaradır. Hazırda burada ən çox tələb olunan praktik kompüter proqramları ixtisaslı müəllimlər tərəfindən öyrədilir. Tədris planı müəyyən olunmuş kateqoriyalar üzrə aparılır və sonra imtahan komissiyası tərəfindən iki mərhələdən ibarət olan imtahan keçirilir. İmtahandan müvəffəqiyyətlə keçən dinləyicilərə təyin olunmuş kateqoriya üzrə şəhadətnamə verilir. Hazırda mərkəzdə 28 ümumi və 42 fərdi qrupda 265 dinləyici təhsil alır.

Bəli, bu gün informasiya-kommunikasiya texnologiyalarının inkişafı muxtar respublikamızda prioritet sahələrdən biridir. Son illərdə bu sahənin inkişafı ilə bağlı mühüm addımlar atılıb, müxtəlif layihələr həyata keçirilib. İnformasiya texnologiyalarının tədrisi ilə bağlı görülmüş işlər isə gənc nəslin bilik və bacarıqlarının təkmilləşməsinə, onların qlobal dünyanın yeniliklərindən lazımınca yararlanmalarına imkan verir.

**Gülcamal TAHİROVA**

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin iş planına uyğun olaraq Naxçıvan Günəş Elektrik Stansiyasında “Elektrik stansiyalarında yanğınların qarşısının alınması və söndürülməsi zamanı idarəetmə orqanları və qüvvələrin fəaliyyətinin təşkili” mövzusunda taktiki-xüsusi təlim keçirilib.***

## Naxçıvan Günəş Elektrik Stansiyasında taktiki-xüsusi təlim keçirilib



Təlimə nazirliyin aparatının və Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin müvafiq vəzifəli şəxsləri, Naxçıvan şəhər, Babək, Şahbuz və Kəngərli rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin yanğından mühafizə bölmələri, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin ***“112”*** qaynar telefon xətti, ***“101”*** xidməti və Naxçıvan Günəş Elektrik Stansiyasının rəhbərliyi cəlb olunub.

Təlimin keçirilməsində məqsəd stansiyada ehtimal olunan yanğınlar zamanı yarana biləcək vəziyyətin qiymətləndirilməsi və qərarın qəbulu üzrə təlim iştirakçılarına təcrübə qazandırmaq, yanğınların söndürülməsi zamanı yanğından mühafizə bölmələrinin uzlaşmış fəaliyyətini təşkil etmək, həmçinin yanğınların operativ və cəld söndürülməsi üçün qüvvə və vasitələrin düzgün bölüşdürülməsinə, yanğın sahələrinin məhdudlaşdırılmasına, yanğınsöndürmə texnikalarının hərəkətinin məhdud olduğu ərazilərdə əlaltı vasitələrlə yanğının söndürülməsinə nail olmaqdan ibarət olub.

Təlim planına uyğun olaraq birinci mərhələdə Günəş Elektrik Stansiyasında ehtimal olunan yanğınlar zamanı yarana biləcək vəziyyətin qiymətləndirilməsi, yanğından mühafizə bölmələrinin təlim rayonunda yerləşdirilməsi və yanğının həlledici istiqamətlərinin müəyyənləşdirilməsi üzrə müvafiq vəzifəli şəxslərin məruzələri dinlənilib və yanğının söndürülməsi üçün qərar qəbul edilib.

İkinci mərhələdə Günəş Elektrik Stansiyasının 2, 4 və 5-ci günəş panelləri ərazisində şərti baş vermiş yanğınların söndürülməsi üzrə idarəetmə orqanlarının və qüvvələrin uzlaşmış fəaliyyəti təşkil olunub, təlim yerlərində yanğından mühafizə bölmələrinin praktik fəaliyyətinə qiymət verilib. Yanğınsöndürənlərin cəld və çevik fəaliyyəti nəticəsində yanğınların qarşısı vaxtında alınıb. Şərti yanğınların söndürülməsində Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin 20 nəfər şəxsi heyəti, 2 ədəd “Kamaz” markalı, 1 ədəd “İveco” markalı yanğın avtomobili, eləcə də Babək, Şahbuz və Kəngərli rayon şöbələrinin, ümumilikdə, 31 nəfər şəxsi heyəti, 3 ədəd “Kamaz” markalı yanğın avtomobili iştirak edib. Təlim uğurla başa çatdırılıb, qarşıya qoyulmuş məqsədlərə nail olunub, yanğınsöndürmə bölmələri təcrübə qazanıb.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Ümumtəhsil məktəblərində məktəbəhazırlıq qrupları üçün zəruri şərait yaradılıb

***Görkəmli alman nəzəriyyəçisi Albert Eynşteyn deyirdi ki, bir ölkənin gələcəyi o ölkə insanlarının alacağı təhsilə bağlıdır. Bəli, bu gün dünyanın inkişaf etmiş ölkələrinin təhsil sisteminə, insanların savadlılıq dərəcəsinə baxsaq, bu ifadənin doğruluğuna tam əmin oluruq.***

Təqdiredici haldır ki, son illərdə Azərbaycanda da təhsil sistemi tam təkmilləşdirilib, savadlılıq dərəcəsi, təxminən, 100 faizə çatdırılıb. Ancaq bir faktı da unutmaq olmaz ki, illər öncə bu sahədə müəyyən boşluqlar, çatışmazlıqlar mövcud idi. Yəni təhsil pillələri arasında əlaqə zəif qurulmuşdu ki, bu da, son nəticədə, təhsilin inkişafına mane olurdu. Xüsusilə də hələ məktəbə qədəm qoymayan uşaqların məktəbə alışması uzun vaxt aldığından bu hal həm müəllimləri, həm də valideynləri çox narahat edirdi. Uşaq məktəbəhazırlıq mərhələlərini keçmədən birbaşa məktəbə qəbul olunduğundan dərsləri daha gec qavrayır, müəllimi və sinif yoldaşları ilə ünsiyyətdən çəkinirdi. Yaranan çatışmazlıqlar müəllimlərin işini xeyli çətinləşdirir, tədris prosesini ləngidirdi.

2016-cı ildən məktəbəhazırlıq qruplarının fəaliyyətə başlaması ilə bu hallar aradan qaldırılıb, təkcə ibtidai sinif müəllimlərinin deyil, valideynlərin də çətinlikləri azalıb.



Muxtar respublika rəhbərinin bu sahəyə göstərdiyi diqqət və qayğı sayəsində məktəbəhazırlıq qruplarının şəbəkəsi genişlənib, məşğələlərin keyfiyyətli təşkili üçün lazımi şərait yaradılıb, məktəblərimiz pulsuz dərslik və əyani vəsaitlərlə təmin edilib. Təkcə cari tədris ilində məktəbəhazırlıq qrupları üçün 16 mindən artıq dərs, 400-ə yaxın müəllim üçün metodik vəsaitlər gətirilərək ümumtəhsil məktəblərinə çatdırılıb. Bundan əlavə, ümumtəhsil məktəblərində məktəbəhazırlıq qruplarında tədrisin keyfiyyətini yüksəltmək, müəllimlərin məşğələ prosesini düzgün qurmaları üçün siniflər maqnitli hərflər toplusu və lövhələr, bütün dərsləri əhatə edəcək rəngli tablolarla təchiz edilib. Ümumtəhsil məktəblərində yüksək səviyyəli şəraitin yaradılmasının və elektron lövhəli siniflərin olmasının nəticəsidir ki, müəllimlər məşğələlərdə nümunələri əyani şəkildə göstərə bilirlər.

Yeni dərs ilində muxtar respublika üzrə 124 məktəbdə fəaliyyət göstərən 196 məktəbəhazırlıq qrupunda 3125 uşaq təhsil alacaq. Hər il oktyabrın 1-dən mayın 31-dək səkkiz ay davam edən məktəbəhazırlıq qruplarında beşyaşlı uşaqların tədrisə hazırlıqlı başlaması, dərs prosesinə alışması, məktəb təliminə hazırlığı və bacarıq vərdişlərinin formalaşdırılması prosesi qarşıya bir məqsəd kimi qoyulur və buna nail olunur. Keçirilən məşğələlər uşaqların erkən yaş dövründən məktəb dərslərinə hazırlanmalarına imkan verir. Həftənin ilk 4 günü ərzində, hər gün 2 saat müddətində fəaliyyət göstərən məktəbəhazırlıq qruplarının əsas məqsədi uşağın məktəbə hazırlıqla əlaqədar psixoloji dayanıqlılığını artırmaq, əhatə olunduğu aləmə və təhsil mühitinə uyğunlaşdırmaq, ünsiyyət və birgə fəaliyyət bacarıqlarına yiyələnməsini təmin etməkdir.

Bu qruplarda gündəlik 3 məşğələ təşkil olunur. Hər məşğələnin müddəti 30, məşğələlərarası fasilə isə 10 dəqiqə olur. Bu qruplarda məşğələlər təcrübəli ibtidai sinif müəllimlərinə həvalə edilib. Məktəbəhazırlıq uşağın təlim prosesinə uyğunlaşmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Uşaqlar bu prosesi keçdikdən sonra daha aktiv olmaqla yanaşı, sərbəst fikir söyləməyi, özlərini bu və ya digər şəkildə ifadə etməyi bacarır, məktəbə və məktəbdaxili nizam-intizama alışırlar.

Məktəbəhazırlıq təhsilin təməli və hər bir təhsilalanın gələcəyinin təminatı olduğundan Təhsil Nazirliyi tərəfindən ümumtəhsil məktəblərinin bu istiqamətdə fəaliyyəti diqqətdə saxlanılır. Bu qruplarda məşğələlər yalnız ixtisaslı və iş təcrübəsinə malik, diaqnostik qiymətləndirmədən yüksək bal toplamış müəllimlər tərəfindən tədris edilir. Əvvəlki dövrlərdə bu qruplarda müəllimlərin seçilməsi pərakəndə xarakter daşıyırdısa, bu problem 2018-2019-cu tədris ilinin əvvəlində Təhsil Nazirliyinin kollegiya iclasının qərarı ilə aradan qaldırılıb. Həmin qərara əsasən məşğələlər ötən tədris ilində dördüncü sinifdə dərs aparmış müəllimlər tərəfindən tədris olunur. Varislik prinsipi gözlənildiyi halda beşyaşlılar və onların valideynləri artıq bilirlər ki, məktəbəhazırlıq qrupunun müəllimi həm də ibtidai təhsil pilləsini əhatə edən 4 il ərzində bu uşaqlara dərs keçəcək. Belə olan halda uşaqlar məktəbəhazırlıq qruplarında gələcək sinif müəllimlərinə uyğunlaşa bilir və müəllimlər də hər uşağın psixoloji və mənəvi keyfiyyətlərinə qabaqcadan bələd olaraq gələcəkdə şagirdlərə hansı formada yanaşma tərzini əvvəlcədən müəyyənləşdirirlər. Onlar şagirdi olacaq balacaları, şagirdlər isə müəllimini daha yaxından tanımaq imkanı əldə edir, ünsiyyətdə çətinlik çəkmirlər. Eyni zamanda məşğələ zamanı hər bir uşağın fərdi xüsusiyyətini öyrənmək müəllimə növbəti ildə dərs deyəcəyi həmin şagirdin potensialının, bilik və bacarıqlarının üzə çıxarılması üçün də vaxt qazandırır.

Onu da xüsusi vurğulamaq yerinə düşər ki, bu gün muxtar respublikanın ən ucqar guşələrində, vaxtilə əlçatmaz hesab olunan dağ kəndlərində belə, məktəb binalarının yenidən qurulması və onların maddi-texniki bazalarının təkmilləşdirilməsi dövlətimizin təhsilə prioritet saha kimi yanaşmasından xəbər verir. Zaman keçdikcə bu istiqamətdə görülən işlərin miqyası daha da böyüyür və nəticə etibarilə, təhsilimizin keyfiyyəti yüksəlir, bacarıqlı, savadlı, hərtərəfli dünyagörüşünə malik gənclər yetişir. Təbii ki, hər bir işdə olduğu kimi, təhsildə də təməlin necə qoyulması onun gələcək inkişafında başlıca şərt hesab olunur. Bu baxımdan məktəbəqədər təhsilin düzgün qurulması, məktəbəhazırlıq qruplarının səmərəli təşkili gələcəkdə bu sahədə daha böyük irəliləyişlərin olacağından xəbər verir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

Cəlil Məmmədquluzadə – 150

# Milli təfəkkürümüzdə yeni mərhələnin başlanğıcını qoyan böyük ədib

***Cəlil Məmmədquluzadə böyük satirik, məşhur Molla Nəsrəddin ədəbi məktəbinin banisi və ideya rəhbəri, kiçik hekayənin böyük ustadı, qüdrətli dramaturq və publisistdir. Bu il görkəmli yazıçının anadan olmasının 150 illiyi tamam olur. Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2019-cu il 17 yanvar tarixdə “Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncam imzalayıb, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə görkəmli yazıçı-publisistin yubileyinin muxtar respublikamızda da geniş qeyd olunması ilə bağlı Tədbirlər Planı təsdiq edilib. Biz də ölkə miqyasında keçirilən yubiley tədbirləri çərçivəsində maarifpərvər və vətənpərvər ədibin həyat yolu, yaradıcılığı barədə daha geniş məlumat almaq üçün filologiya üzrə fəlsəfə doktoru, Naxçıvan Dövlət Universitetinin dosenti İman Cəfərovla həmsöhbət olduq.***



*– İman müəllim, Mirzə Cəlil irsinin tədqiqatçısı kimi böyük ədibi oxucularımıza necə təqdim edərdiniz?*

– Mətbuatşünas və ədəbiyyatşünaslarımız, estetik və elmi təfəkkürümüz böyük Mirzə Cəlilin kimliyi və yaradıcılığının elmi-bədii dəyəri ətrafında hələ sovetlər dönəmində düşünüb. Bunu qətiyyətlə demək olar ki, Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatı, jurnalistikası və publisistikasına imza atmış əvəzsiz şəxsiyyətlərdən biridir. Bütün bunların hər birinin arxasında son dərəcə qeyri-adiliklər vardır. Çünki Cəlil Məmmədquluzadə elə böyük ədəbi simalardandır ki, o, hər hansı bir əsəri ilə belə, müəyyən mənada, bir ilkə imza atıb. Onun yaradıcılığı ilə tənqidi realizm, Azərbaycan publisistikası, jurnalistikası və ədəbiyyatı öz yeni mərhələsinə qədəm qoyub. Amma Mirzə Cəlil həm də, sözün əsl mənasında, bizim milli təfəkkürümüzdə hadisə idi.

*– Cəlil Məmmədquluzadəni dünya ədəbiyyatında kimlərlə müqayisə edərdiniz?*

– Sovet dövrü ədəbiyyatında Mirzə Cəlil yaradıcılığını təhlil edən ədəbiyyatşünaslar onu daha çox rus ədəbiyyatı nümayəndələri – Qoqol, Puşkin, Jukovski, Saltıkov-Şedrin, Tolstoy yaradıcılığı ilə müqayisəyə üstünlük verirdilər. Bu böyük şəxsiyyət dünya ədəbiyyatında görkəmli qələm sahiblərinin gördükləri işləri Azərbaycan ədəbiyyatında təkbaşına yerinə yetirib. Mən vurğulamaq istəyirəm ki, biz bu gün 100 il bundan əvvəl Mirzə Cəlilin bizə öyrətdiyi ədəbi dildə danışırıq. Bu, Mirzə Cəlilin Azərbaycanın milli-mənəvi dəyərləri sırasında olan dil sahəsindəki xidmətidir. Eyni zamanda böyük ədib istədi ki, ədəbiyyat bir-iki şəxsin yox, bütöv xalqın təfəkkür formasına çevrilsin və buna da nail oldu. Ədib Sədi Şirazinin fars ədəbiyyatı qarşısındakı xidmətlərini Azərbaycan ədəbiyyatında yerinə yetirdi. Bəzən Cəlil Məmmədquluzadənin məhz məhəmmədhəsən əmilərdən, novruzəlilərdən yazmasını tənqidlə qarşılayır və millətimizi ifrat şəkildə tənqid hədəfinə çevirməkdə ittiham edirlər. Bəs Viktor Hüqonu fransızlar niyə günahlandırmırlar, o da Fransanın səfilliyindən yazırdı. Əslində, böyük Mirzə Cəlilin “Molla Nəsrəddin”i də məhz Azərbaycanın “Səfillər”idir. Bu səfillik yalnız ictimai həyatın deyil, ümumi mənada, təfəkkürün səfilliyi idi. Bu mənada, o vaxt üçün “Səfillər”in Şərq modelini də Mirzə Cəlil yaradıb. Türk ədəbiyyatında Namiq Kamal haqqında yazırlar ki, o, elə bir şəxsiyyətdir ki, türk ədəbiyyatında əsrlərlə davam edən “Gül və Bülbül” hekayəsini Vətən və millət hekayəsi şəklinə salıb və bununla da ədəbiyyatı kütləviləşdirə bilib. Azərbaycan ədəbiyyatında bu missiyanı Mirzə Cəlilin rəhbərlik etdiyi mollanəsrəddinçilər qeyd-şərtsiz həyata keçirdilər.

Böyük ədib bu fikirdə idi ki, hansısa bir yazıçının qələmi ilə xalqına xidmət etdiyi üçün tərifləmək doğru deyil. “Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi uğrunda mübarizə aparmaqdır, onun yolunda xidmət etməkdir. Bu ola gərək hər bir qələm sahibinin amalı” ideyası ilə yazıçı qələmə sarılıb. Kimdənsə tərif və mükafat gözləmədən öz xalqının xoşbəxtliyi yolunda qələmi ilə mübarizə aparıb.

*– Bəs Cəlil Məmmədquluzadə və “Molla Nəsrəddin” jurnalının nümayəndələri dünya ədəbiyyatından kimlərə müraciət edirdilər?*

– Onlar fars ədəbiyyatından Hafiz, Sədi Şirazi, Ömər Xəyyam, türk ədəbiyyatından Namiq Kamal, Xalid Ziya Paşaoğlu, Mahmud Əkrəm Rəcaizadə, Abdulla Cövdət bəyin yaradıcılığına çox, Avropa ədəbiyyatından Fridrix Şiller, Jan Jak Russo, Emil Zolyanın əsərlərinə isə az hallarda müraciət edirdilər. Bunun əsas səbəbi isə xalqa xidmətin yeni modellərini tədqiq və təhlil etməkdir. Böyük ədib Şərqdən ayrılıb, Qərbə kor-koranə pərəstiş edən şəxsiyyət olmayıb. O, Şərqin yaralarını, dərdlərini ürəkağrısı ilə qələmə alsa da, ondan imtina etmir. Onu düşündürən əsas məsələ Şərqin inkişaf yoluna düşməsidir. Ona görə nöqsanları dönə-dönə xatırladıb və onlardan xilas olmadan Yer kürəsinin bu qütbünü inkişaf etdirməyin qeyri-mümkün olduğu qənaətinə gəlib.

*– Ədəbiyyatımızda məhz Mirzə Cəlilin həyata keçirdiyi missiyalar nədən ibarət olub?*

– Akademik İsa Həbibbəyli yazır ki, Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatında istiqlaliyyət uğrunda mübarizənin baş sərkərdəsidir. Bu, təsadüfi deyil. İstiqlaliyyət bir xalqın Vətəninin azadlığı uğrunda mübarizəsidir. O göstərdi ki, ədəbiyyat yalnız məhəbbət mövzusundan ibarət deyil. Onun yazdıqlarının da hər biri məhəbbətdən irəli gəlirdi, amma xalqına, məmləkətinə, Vətəninə, vətəndaşına məhəbbətdən... Digər tərəfdən ədəbiyyatımızda elə terminlər var ki, onlar ancaq dahi qələm sahiblərinin adı ilə bağlıdır. Onlardan biri də “ədəbi məktəb” terminidir. Nizami, Füzuli, Vaqif, Mirzə Cəlil ədəbi məktəbi ifadəsi vardır. Mirzə Cəlil dahiliyinin daha bir göstəricisi ondan ibarətdir ki, o həm də əsasını qoyduğu jurnalın adı ilə Molla Nəsrəddin ədəbi məktəbini yaradıb. Yüzlərlə qələm sahibi də həmin məktəbin layiqli davamçısı olub. XX əsrin 30-cu illərindən “Molla Nəsrəddin ədəbi məktəbi” termini jurnalistika, publisistika və ədəbiyyatşünaslığımızda geniş yer tutur. Bu məktəb daim yeni nəsillərə dərs keçəcək məktəbdir.



Bilirik ki, “Molla Nəsrəddin” jurnalında ölməz nəzm əsərlərinin müəllifi M.Ə.Sabir olsa da, ilk satirik şeirlərin müəllifi yenə də Mirzə Cəlildir. Onun “Lisan bəlası” adlı ilk satirik şeiri “Molla Nəsrəddin”in birinci sayında dərc olunub. Bu şeirlə Cəlil Məmmədquluzadə gələcək mollanəsrəddinçi satirik şairlərə nümunə göstərib, istiqamət verib. Bu şeir Azərbaycan türkünü özünüdərkə, oyanışa, hüquqları uğrunda mübarizəyə səsləməkdədir. Mirzə Cəlilin Azərbaycan satirik poeziyasında xidməti bununla hüdudlanmır. Ədəbiyyatımızda elə satirik formalar var ki, onların da ilk və qısa nümunələrini Mirzə Cəlil yaradıb, sonra onun davamçıları bu janrlar əsasında irihəcmli əsərlər yazıblar. Maraqlı və satirik janrlardan biri olan və sonralar Ə.Qəmküsar, M.Ə.Sabir, M.S.Ordubadi yaradıcılığında rast gəlinən təxmis, çaharparə (çarpara) və digər janrlara ilk dəfə o müraciət edib. Böyük ustad fars şairi Hafizin şeirinə təxmis yazıb, özünün “Məktub” felyetonunun sonunda beşmisralıq təxmisi qələmə alıb. Satirik çarparəni isə Əbülqasim Nəbatinin şeirinə xitabən yazıb. Onun yaradıcılığında yenilik bəzən sərlövhə, abzas, misra, söz həcmindədir (“Hacıxana”, “Çuval”). Belə misallar kifayət qədər çoxdur...

*– Cəlil Məmmədquluzadə yaradıcılığında sizi cəlb edən əsas cəhətlər haqqında nə deyə bilərsiniz?*

– Böyük Mirzə Cəlil yaradıcılığında hər hansı bir əsəri təhlil obyektinə çevirsək, Azərbaycan ədəbiyyatı üçün yeni olan cəhətlər görmək mümkündür. Onun 1889-cu ildə qələmə aldığı “Çay dəstgahı” əsəri ilk qələm təcrübəsi olsa da, bu əsərində belə, bir neçə ilkə imza atıbdır. Bu əsər ədəbiyyatımızda yazılmış ilk alleqorik-mənzum dramdır. Bu əsərlə mənzum dramaturgiyanın əsası qoyulur, “Kimdir günahkar?” sualına cavab axtarılır. 1894-cü ildə qələmə aldığı “Danabaş kəndinin əhvalatları” povesti özünə qədər yazılmış əsərlərdən həm də quruluşuna görə fərqlənir. Həmin əsərin əvvəlində proloq xarakterli “Bir yüngülvarı müqəddimə”, sonunda isə epiloq xarakterli “Xitamə” vardır. Bu, həmin povestin forma yeniliyidir. Elə bir əsər varmı ki, orada Azərbaycan kəndlisi Məhəmmədhəsən əminin, Azərbaycan qadını Zeynəbin, hətta Azərbaycan kəndinin katdası Xudayar bəyin həyatı bu dərəcədə mükəmməl qələmə alınsın? Bu əsər həm özünün strukturuna görə, həm də forma və məzmun, ideya baxımından tamamilə yeni bir hadisə idi.

Ədəbiyyatımızda yeni bir janrın – tragikomediyanın əsası da məhz ədibin “Ölülər” əsəri ilə qoyulub. Cümhuriyyət, Vətən və bütöv bir xalqın istiqlaliyyəti ilə bağlı mövzulara Mirzə Cəlil yaradıcılığında cavab tapa bilirik. Onun əsasını qoyduğu “Molla Nəsrəddin” jurnalı isə Azərbaycan jurnalistikası, mətbuatı tarixində ilk mətbu orqan idi ki, burada satira, karikatura, nəzm və nəsr vəhdət təşkil edir.

*– Cəlil Məmmədquluzadə publisistikası barədə nə deyə bilərsiniz?*

– Mətbuatda dərc edilən hər bir yazını publisistika adlandırmaq olmaz. İstər bədii olsun, istər elmi, siyasi, bütövlükdə, ən müxtəlif baxışları, prinsipləri əks etdirən publisistika demokratiyanın göstəricisi olmaqla yanaşı, həm də müəllifin yaradıcı təfəkkürünü cəmiyyətin inkişafına, ictimai şüura təkan verən amillər sırasına çıxarır. Bəzən sizə elə gələ bilər ki, Mirzə Cəlil hansısa ötəri hadisədən bəhs edir. Ancaq o, elə bir məsələni gündəmə gətirir ki, bu, xalqın tarixi taleyi ilə bağlı olur. XX əsrin əvvəllərində Cəlil Məmmədquluzadə ərəb əlifbasının dəyişdirilməsi istiqamətində iş aparıb. Bununla da o, xalqın inkişafına mane olan məsələlərdən birini də əlifbada görürdü. Mirzə Cəlil əsərlərinin bir neçəsi akademik İsa Həbibbəylinin redaktorluğu ilə Pakistanda urdu dilində, ərəb əlifbası ilə dərc edilib. Həmin kitablardan birində yazılır ki, ədib 100 il əvvəl yazsa da, sanki indiki cəmiyyətimizdən yazıb. Xalqda kütləvi savadsızlığın ləğv edilməsi tərəfdarı olan ədib həm də bəzi azərbaycanlıların ruslara meyilliliyini görür, ruslaşdırmanın əleyhinə çıxırdı. Bu günün özündə də soyadların sonundakı “ov”, “ova” ilə əlaqədar o, hələ XX əsrin əvvəllərində özünün “Təzə ufa (ofa-ova) xanımlarımız” adlı felyetonunu yazır. Başlıq əvvəlcə başqa mənanı versə də, əslində, burada həmin məsələyə toxunurdu. Deyərdim ki, onun publisistikasının şah əsəri 1917-ci ildə qələmə aldığı “Azərbaycan” məqaləsidir. Xalqımızı istiqlaliyyətə ruhlandıran bu məqalədəki Vətən ifadəsi vətən qardaşı, vətən oğulları anlamındadır. O, bu məqalə ilə hər bir azərbaycanlını istiqlaliyyəti uğrunda mübarizəyə səsləyir və deyirdi ki, hər bir azərbaycanlı bunu birdəfəlik dərk etməlidir ki, Azərbaycanın istiqlaliyyətindən başqa, özgə nicat yolumuz yoxdur. Biz bu dərsi keçərək öz müstəqilliyimizə qovuşa bildik. Ona görə də Cəlil Məmmədquluzadə müstəqillik uğrunda mübarizənin ön cəbhələrində dayanmaqdadır, – deyəndə də səhv etmirik.

Mən xüsusi vurğulamaq istəyirəm ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş “Oxunması zəruri olan kitabların Siyahısı”na Cəlil Məmmədquluzadənin hekayələrinin də salınması bizə bir daha göstərir ki, gənc nəsillər onun əsərlərinə yenidən müraciət etməli, həmin əsərlərdəki qayəni, amalı, məramı, məqsədi yenidən öyrənməli və bütün bunları özlərindən sonrakı nəsillərə çatdırmaqda iş aparmalıdırlar.

Bu işdə ölkə Prezidenti cənab İlham Əliyevin “Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında”, eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun yubileylə bağlı “Tədbirlər Planı”nın təsdiq edilməsi ilə əlaqədar sərəncamları da çox mühüm rol oynamaqdadır. Hər iki dövlət sənədi böyük ədibə xüsusi ehtiramın ifadəsi olmaqla yanaşı, həm də Cəlil Məmmədquluzadə irsinə göstərilən böyük diqqət və qayğının bariz nümunəsidir. Sözügedən sərəncamlara əsasən həyata keçirilən tədbirlər böyük ədibin zəngin ədəbi-mədəni irsinin yenidən öyrənilməsi və təbliğində mühüm rol oynamaqla, onun irsinə olan yeni yanaşmaları da ortaya çıxaracaqdır. Mən deyərdim ki, Cəlil Məmmədquluzadə irsi hər dövr üçün aktualdır, dəyərlidir, onun əsasını qoyduğu zəngin yaradıcılıq ənənələri isə ölməzdir.

*– Müsahibə üçün çox sağ olun!*

**Güntac ŞAHMƏMMƏDLİ**

---

***Avqustun 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən Naxçıvan Dövlət Filarmoniyasına hədiyyə edilmiş qədim musiqi alətlərinin təqdimatı keçirilib.***

## Qədim musiqi alətlərinin təqdimatı olub



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natavan Qədimova açaraq bildirib ki, ölkəmizdə olduğu kimi, muxtar respublikamızda da mədəniyyətin və musiqi sənətinin professional formada inkişafına hərtərəfli dövlət qayğısı göstərilir. Qədim tarixə və zəngin ənənələrə malik olan Naxçıvan musiqi sənəti məhz bu diqqət və qayğı sayəsində özünün yeni inkişaf dövrünü yaşayır. Xalqımızın yaradıcılıq istedadını özündə əks etdirən milli musiqi nümunələrimiz, muğam və xalq mahnılarımız, yallı və rəqslərimiz Naxçıvan Dövlət Filarmoniyası kollektivlərinin ifasında artıq bir sıra dünya ölkələrində sevilə-sevilə dinlənilir, izlənilir, bu ifalar könülləri fəth edir.

Qeyd edilib ki, filarmoniyada 7 kollektivdə professional ifaları ilə geniş ictimaiyyətin rəğbətini qazanmış 200-ə yaxın sənət adamı fəaliyyət göstərir. İstedadlı gənclərin filarmoniyaya cəlb edilməsi işi də diqqətdə saxlanılır.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə musiqi kollektivlərinə, folklor ansambllarına geyim dəstlərinin, paltarlarının, musiqi alətlərinin, musiqi texnikasının təqdim olunması ənənəyə çevrilib. Naxçıvan Dövlət Filarmoniyasına son illər ərzində milli və Avropa istehsalı olan musiqi alətləri verilib, musiqi kollektivləri və solistləri geyim dəstləri ilə təmin ediliblər.

Nazir qeyd edib ki, bu gün filarmoniyaya 18 adda 20 sayda qədim musiqi alətləri təqdim olunur. Bu alətlər içərisində bərbəd, kamanlı rübab, şirud tənbur, çoğur, bəm rübab, çəng, qabaq kaman, musiqar, ağız qopuzu, ovuc neyi kimi alətlər filarmoniyada ilk dəfə istifadə ediləcək. Hədiyyə edilən qədim musiqi alətləri filarmoniya üzvlərinin peşəkar ifaçılığına, nəticə etibarilə, konsert proqramlarının professional formada təqdiminə böyük imkan verəcəkdir. Bundan başqa, həmin qədim musiqi alətləri musiqi mədəniyyətimizin təbliği və tanıdılmasında da müstəsna əhəmiyyət kəsb etməkdədir. Belə ki, həm ifaçılar, həm də konsert proqramlarının iştirakçıları həmin qədim musiqi alətləri, eləcə də ondan istifadə haqqında müvafiq bilik və təsəvvürə yiyələnə biləcəklər.

Natavan Qədimova bu münasibətlə filarmoniya kollektivlərini təbrik edib və onlara yeni yaradıcılıq uğurları arzulayıb. O, milli musiqi sənətimizin, ümumilikdə, milli dəyərlərimizin yaşadılması və təbliğinə göstərdiyi yüksək diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə bütün mədəniyyət işçiləri adından dərin minnətdarlığını bildirib.

Tədbirdə Naxçıvan Musiqi Kollecinin müəllimi İxtiyar Seyidov, Naxçıvan Dövlət Filarmoniyasının direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Əsgərov çıxış ediblər.

Sonda tədbir iştirakçıları təqdimatı keçirilən qədim musiqi alətləri ilə tanış olublar.

**Xəbərlər şöbəsi**

## Qubadlının işğalından 26 il ötür



***Əlverişli təbii-coğrafi şəraitə, münbit torpaqlara malik olan Zəngəzur mahalının qədim yaşayış məskəni Qubadlı rayonu 26 il bundan əvvəl – 1993-cü il avqustun 31-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Azərbaycanın bu dilbər guşəsinin işğala məruz qalması nəticəsində 445 min kvadratmetr mənzil fondu, 4 tibb ocağı, 6 uşaq bağçası, 61 ümumtəhsil məktəbi, 10 mədəniyyət evi, 24 klub, 1 tarix-diyarşünaslıq muzeyi, 60 kitabxana dağıdılıb, işğalçılar 94 kənd və qəsəbəni, 205 mədəni-məişət obyektini, 12 tarixi abidəni yandırıb viran qoyublar.***

Strateji əhəmiyyət daşıyan Qubadlı ermәni təcavüzü ilə, əslində, Qarabağ münaqişəsindən bir qədər əvvəl üzləşmişdi. Sərhədlərin dəqiqləşdirilməsi adı ilə tarixən qubadlılıların dədə-baba torpaqları olan Vəli düzü, Güllü zəmi kimi gözəl təbiətli əraziləri Ermənistana vermək cəhdi, münaqişənin örtülü olsa da, bünövrəsini qoymuşdu. Hələ 1988-ci il fevral ayının 6-da Xankəndidə ilk erməni mitinqlərindən sonra Ermənistandan azərbaycanlıların deportasiya edilməsinə başlananda Sisyandan, Qafandan, Gorusdan zorla çıxarılan azərbaycanlıların bir qismini Qubadlı qəbul etmişdi. Rayon Dağlıq Qarabağla Ermənistan arasında yerləşdiyinə görə strateji əhəmiyyəti daha böyük idi və bunu gözəl başa düşən erməni təcavüzkarları Qubadlıda terror-təxribat əməlləri törədirdilər. Onlar Dağlıq Qarabağa Qubadlı ərazisindən keçid yaratmaq, dəhliz açmaq, buradan separatçılara silah-sursat daşımaq niyyətini həyata keçirmək istəyirdilər.

1989-cu ilin sentyabr ayında sovet qoşunlarının zirehli texnikalarının müşayiəti ilə Gorus istiqamətində Yazı düzü yolu ilə 150-160 avtomobildən ibarət maşın karvanının Qubadlı ərazisinə yaxınlaşması hadisələrin başlanmasının ilk işartıları idi. Həmin vaxt əhali ayağa qalxdı. Bütün yollar bağlandı. Əliyalın camaat maşın karvanının yolunu elə sərhəddəcə kəsdi. Avtomobil karvanı Xankəndi şəhərinə buraxılmadı. Geri qaytarılan avtomobil karvanı bir həftə Gorusun Xinzərək kəndində qaldıqdan sonra Laçın-Şuşa yolu ilə Xankəndinə yol tapa bildi və karvanı müşayiət edən zirehli texnika Laçın şəhərində faciələr törətdi.

Bu yurd yeri Ermənistanla 120 kilometr məsafədə həmsərhəddir. Ermənilər sərhəddə yerləşən Əliquluuşağı, Məlikməhəmmədli, Seytas, Eyvazlı, Qədili, Dovudlu, Novlu, Yuxarı Cibikli, Əyin, Çardaxlı, Tarovlu, Fərcan, Göyyal, Saldaş, Çərəli kəndlərinə hücum edir, yaşayış məntəqələrini atəşə tuturdular. 1989-cu ilin axırlarında isə rayonda vəziyyət son dərəcə ağırlaşmışdı. Düşmənin hücumlarının, təxribat əməllərinin qarşısını alan özünümüdafiə dəstələri yerli milis qüvvələri ilə birlikdə hərəkət edir, düşmən hücumlarına mərdliklə müqavimət göstərirdilər. 1993-cü ilin yayında Əliquluuşağı kəndi istiqamətində bir gündə 3 düşmən vertolyotunun vurulması və sonradan onlardan birinin qənimət kimi götürülməsi buna sübutdur. Lakin qüvvələr qeyri-bərabər idi. Təcavüzkar erməni dəstələri avtomat silahlardan, artilleriyadan, zirehli hərbi texnikadan gen-bol istifadə etdiyi halda, bizdə silahlar sadə ov tüfəngləri idi, hətta onların da sayı yetərincə deyildi. Bu dövrdə rayonun şərq tərəfdən geniş bir ərazisi müdafiəsiz qalmışdı. Həkəri çayı boyunca Zilanlı, Mahruzlu, Xanlıq kəndlərindən tutmuş Başarat zonasınadək yerli əhali ayağa qalxsa da, qüvvələr qeyri-bərabər idi. Zirehli texnikanın qarşısını almaq mümkün deyildi. Beləliklə, Qubadlı 1993-cü il avqustun sonlarında artıq ermənilərin mühasirəsində idi. Cəbrayılın axırıncı kəndləri – Çullu, Maşanlı və Dağtumasın da düşmən əlinə keçməsindən sonra Qubadlının alınması bir an məsələsi idi. Həmin vaxt erməni təcavüzkarları mütəmadi olaraq Qafan, Gorus və Laçın istiqamətlərindən rayonu güllə atəşi altında saxlayırdılar. Qubadlılılar doğma torpaqlarını işğal etmək istəyən ermənilərə qarşı mərdliklə vuruşurdular. Ancaq bütün bunlara baxmayaraq, Qubadlının mərd sakinləri qeyri-bərabər döyüşdə rayonu tərk etmək məcburiyyətində qaldılar.

1993-cü il avqustun 30-da Gorusdan hücum edən erməni qoşunları Yazı düzündə müqavimətlə qarşılaşsa da, Laçından maneəsiz keçib Muradxanlı kəndinə daxil oldular. Qoşun hissələri Həkəri çayı boyu bütün kəndləri atəşə tutdu və həmin gecə Xanlıq kəndinə qədər olan yaşayış məntəqələri ermənilərin əlinə keçdi. 1993-cü il avqustun 31-də hərtərəfli mühasirəyə düşmüş Qubadlı işğal edildi.

Son anadək Qubadlı uğrunda qəhrəmanlıqla vuruşan döyüşçülərdən 54 nəfər şəhid oldu. Ümumilikdə isə münaqişə dövründə Qubadlı 238 şəhid verib, 146 nəfər sağlamlığını itirib. Bu gün Qubadlının Əliyar Əliyev, Bəylər Ağayev, Aslan Atakişiyev, Səfa Axundov, Ələkbər Əliyev, Kazımağa Kərimov, Aqil Məmmədov, Kərəm Mirzəyev, Vasili Əliyev kimi "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüş igidləri var.

Qeyd etmək lazımdır ki, Qubadlı həm də tarixi və təbiət abidələri ilə zəngin olan yurd yerlərimizdəndir. Rayonun Aşağı Mollu və Həmzəli kəndlərinin hər birində 9, Əliquluuşağı kəndində 5, "Gavur dərəsi" deyilən ərazidə isə IV əsrə aid 1 qədim mağara, V əsrdə tikilmiş Göy qala, Muradxanlıda Qalalı qalası, Xocamsaxlı kəndindəki abidələr öz tarixi əhəmiyyətləri ilə seçilir. Bu gün onların hamısı düşmən tapdağı altında qalıb. Dəniz səviyyəsindən 1600 metr yüksəklikdə yerləşən, zəngin flora və faunaya malik, vaxtilə təbiət abidəsi kimi qorunan 20 min hektarlıq Qubadlı Dövlət Təbiət Yasaqlığı erməni işğalçıları tərəfindən dağıdılaraq məhv edilib. Qubadlının işğalından bir neçə ay sonra – 1993-cü il oktyabrın 14-də BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən 874 saylı qətnamə ilə zəbt olunmuş torpaqların boşaldılması tələb edilsə də, ermənilər tərəfindən bu günədək bir addım belə, atılmayıb. Lakin Azərbaycan Ordusunun gündən-günə güclənməsi, 2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin Günnüt əməliyyatı onu göstərdi ki, xalqımız heç zaman işğal faktı ilə barışmayacaq, əksinə, tezliklə öz torpaqlarını düşmən tapdağından azad edəcəkdir. O zaman respublikamızın 50-yə yaxın şəhər və rayonunda məcburi köçkün həyatı yaşayan 30 mindən çox Qubadlı sakini də yenidən öz doğma yurdlarına qayıdaraq məhv edilmiş rayonda dövlətimizin gücü ilə öz güngüzəranını yenidən quracaq. O günə isə lap az qalıb.

**Səbuhi HƏSƏNOV**

***Dünyamızın bəzəyi sayılan, gözlərindəki sevinc ilə ömrümüzü gözəlləşdirən uşaqların həyatı ilə birbaşa bağlı olan pediatr işi həddindən artıq savad, məsuliyyət, bacarıq və həssaslıq tələb etdiyi üçün bu sahədə uğur qazanmaq çətindir. Yazımın qəhrəmanı Turac Xudiyevanın 60 ildən artıq ömür səhifələrini vərəqlədikdə, seçdiyi peşədə keçdiyi yola qısaca nəzər saldıqda onu müvəffəqiyyət əldə edən pediatrlar arasında görmək olur.***

## Ömür bəxş edən ömür

Turac həkim haqqında oxuculara da məlumat verərək qeyd edim ki, o, 1958-ci il avqustun 25-də Şahbuz şəhərində ziyalı ailəsində dünyaya göz açıb. Atası Qulam Xudiyev tarix müəllimi olub, ömrünü xalqın gələcəyi sayılan uşaqların savadlı, dünyagörüşlü, tarixini, mədəniyyətini bilən vətəndaş kimi yetişməsi işinə həsr edib. Tale elə gətirib ki, Turacın anası Əsmər xanım cavan yaşlarından xəstəliklərə düçar olub.Tez-tez həkimlərlə ünsiyyətdə olub, onların sayəsində sağlamlığına qovuşduqca tibb işçilərinə bəslədiyi inamı çoxalıb. Bu, bir ana kimi onda övladlarından birini həkim görmək arzusunu yaradıb. Hər dəfə səhiyyə ocağına müraciət edəndən sonra qızı Turacı yanına çağıraraq deyib ki, qızım, həkim peşəsi müqəddəsdir, cəmiyyətimiz üçün ən faydalı sahələrdən biridir. Çox istəyirəm ki, böyüyəndə sən də elə bu peşənin yolçularından olasan.

Doğru deyirlər ki, övladın necə formalaşacağı, gələcəkdə hansı işi, peşəni seçəcəyi məhz, ilk növbədə, onun yetişdiyi ailədən, aldığı tərbiyədən çox asılıdır. Turac xanımın uşaqlıq xatirələrini dinləyəndən sonra bu qənaətə gələrəm ki, onun tibb sahəsini seçməsi də, bu sahədə uğur qazanması da elə ailəsindən qaynaqlanıb.

1965-ci ildə Şahbuz şəhər tam orta məktəbinin birinci sinfinə qədəm qoyan Turac xanım təhsil aldığı illərdə sinif yoldaşları arasında hazırcavablığı, dərslərdə fəallığı ilə seçilib. Tibb elmlərinə olan marağını kimya, biologiya fənləri və bu sahə üzrə mütaliə etdiyi kitablar daha da artırır. 1975-ci ildə orta məktəbi müvəffəqiyyətlə başa vuraraq anasının çoxdankı arzusunu reallaşdırmaq yolunda ilk inamlı addımını atır. Azərbaycan Tibb Universitetinin Pediatriya fakültəsinə qəbul olduqdan sonra həyatının yeni bir dönəmi başlayır. Ali təhsil ocağında təhsil aldığı 7 il ərzində tibb sahəsinin incəliklərini həm nəzəri, həm də praktik şəkildə öyrənir.

Təbii ki, uşaqların böyüklərdən fərqli olaraq ağrıya az dözümlü olmaları pediatrların işini digər həkimlərə nisbətən daha məsuliyyətli və çətin edir. Necə deyərlər, əsl uşaq həkimi gərək, birinci növbədə, uşaqları sevsin ki, onlarla işləməkdən yorulub, usanmasın. Həm də uşaq həkimi balacaların "dilini" də bilməlidir. Çünki dünyanı hələ dərk etməyən balacalar hər bir sözə qarşı həssasdırlar, onlar yalnız nəvaziş, qayğı görəndə, bir xoş söz eşidəndə sevinir, həyata bağlanırlar. Turac həkim də məhz bütün bunları nəzərə alaraq ömrünü gələcəyimiz, sabaha inamımız olan uşaqların sağlam böyüməsi, xəstəliklərdən uzaq olmasına həsr edib. Çalışmağa başladığı 1982-ci ildə həm də ailə həyatı quran Turac xanımın övladları dünyaya gəldikcə onda yaranan analıq hissi, öz körpələrinə qayğıkeşliyi, həssaslığı



zaman-zaman digər uşaqların da dünyasına daxil olmasını asanlaşdırdı. Onu yaşadığı rayonda onlarla körpə balanı sağlamlıqlarına qovuşduran bir həkim kimi tanıtdı.

Deyirlər, həkim öz ixtisasını dərindən bilməklə yanaşı, həm də nümunəvi davranışı, səlis nitqi, mehriban ünsiyyəti, yeniliyə olan marağı ilə seçilməlidir. Həkim gözəl nitq qabiliyyətinə malikdirsə, elə xəstə ilə ilk ünsiyyətində onda ümid, inam yaratmaqla müalicəyə başlamış olur. Həkimin xoş sözü, mehribanlığı xəstənin vəziyyətinə bir qayda olaraq müsbət təsir göstərən amillərdir. Bildiyimiz kimi, psixoloji cəhətdən zəif olan insan xəstələndikdə daha da həssaslaşır. Belə hallarda həkimin qayğısı, səmimiyyəti ən təsirli müalicə vasitəsi hesab olunur. Elə Şahbuz Rayon Mərkəzi Xəstəxanasında əvvəlcə sahə və stasionar həkimi kimi fəaliyyət göstərməyə başlayan Turac Xudiyeva da işində bu prinsipi əsas götürüb. Xəstələrlə daim ünsiyyətdə olan, səhiyyə barədə maarifləndirmə işlərinə xüsusi önəm verən Turac həkim qısa zaman ərzində insanların sevgisini, inamını qazana bilib.

2008-ci ildən xəstəxananın Pediatriya bölməsinin müdiri kimi çalışmağa başlayan Turac həkim işinə məsuliyyəti, bacarığı, uğurlu fəaliyyəti ilə dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib. Belə ki, müxtəlif vaxtlarda bir sıra fəxri fərman və diplomlarla təltif olunan bacarıqlı səhiyyə işçisi 2014-cü ildə Azərbaycan Respublikasının "Səhiyyə əlaçısı" döş nişanı ilə təltif edilib. Cari il isə onun üçün daha da uğurlu olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 8 fevral tarixli Sərəncamı ilə muxtar respublikamızın sosial-iqtisadi inkişafında səmərəli fəaliyyətinə görə Turac Xudiyevaya "Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi" fəxri adı verilib.

Turac həkimlə çalışdığı səhiyyə ocağında etdiyim söhbət zamanı bildirdi ki, həkimliyin digər peşə sahələrindən əsas fərqi ondadır ki, bu iş insan həyatı ilə bağlı olduğu üçün hər bir tədbir gərək vaxtında aparılsın. Gecikmə, yubanma halları ağır nəticələr verə bilər.

Həmsöhbətim onu da qeyd edir ki, həkimin işinin uğurlu alınmasında şəxsi keyfiyyətləri ilə yanaşı, yaradılan şəraitin, əlverişli imkanların, lazımi tibbi vasitələrin də olması başlıca şərtdir. Səhiyyəmizin illər öncəki vəziyyətini yaşlı adamlar, yəqin ki, çox yaxşı xatırlayırlar. Heç uzağa getmədən, 40 ilə yaxın çalışdığım Şahbuz Rayon Mərkəzi Xəstəxanasının əvvəlki dövrünü yada salmağım kifayətdir ki, Naxçıvanda səhiyyənin keçmişini dolğun şəkildə izah etmiş olum. Yaxşı yadımdadır, o illərdə kəndlərdə ambulatoriyalar yox dərəcəsində idi. Yolların bərbadlığı üzündən uzaq kəndlərdə yaşayan uşaqların xəstələnərkən mərkəzdəki xəstəxanaya gətirilmələri müəyyən çətinliklər yaradırdı. Digər tərəfdən xəstəxanalarda vəziyyət ürəkaçan deyildi, lakin biz həkimlər əlimizdən gələni əsirgəmirdik. İşə o qədər başım qarışırdı, hətta rəfiqələrim də qınayırdılar ki, sən öz övladlarına vaxt ayırmırsan. İnanın, elə zamanlar olub ki, övladlarım da xəstələnib, palatada onları digər uşaqlar ilə birlikdə müalicə etmişəm.

Turac həkim deyir ki, şükürlər olsun, həmin ağrılı, acılı illər artıq keçmişdə qalıb, indi gözəl şəraitə malik xəstəxana binalarımız, bacarıqlı tibbi kadrlarımız vardır. Bütün ucqar dağ kəndlərimizdə müasir avadanlıqlarla təchiz edilmiş həkim ambulatoriyaları, feldşer-mama məntəqələri fəaliyyət göstərir. İnsanlar daha əvvəlkitək məsafə qət etmədən öz kəndində lazımi müalicəsini alır, ehtiyac olanda mərkəzdəki xəstəxanalara müraciət edirlər. Ucqar kəndlərimizdə apardığımız maarifləndirici söhbətlər zamanı da insanların bugünkü şəraitə necə yüksək dəyər verdiklərinin şahidi oluram. Müstəqillik qazandıqdan sonra biz həkimlərin, tibb işçilərinin əməyi də lazımınca qiymətləndirilir. Fürsətdən istifadə edərək qəzetiniz vasitəsilə son 20 ildə Şahbuz rayonunda səhiyyənin inkişafı üçün yaradılan şəraitə və əməyimə verilən yüksək dəyərə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə səhiyyə işçiləri adından bir daha dərin minnətdarlığımı bildirirəm.

Turac xanımla söhbətdən sonra düşünürəm ki, evdə uşağa ən yaxın anadır, xəstəxanada isə övladlarımıza bu ana nəvazişi və qayğısını qadın pediatrlar göstərirlər. Çünki onlar həm də anadırlar. Bu gün Şahbuz Rayon Mərkəzi Xəstəxanasında çalışan pediatr Turac Xudiyeva da şəfqət dolu əlləri ilə gələcəyimiz olan uşaqların sağlamlığı keşiyində böyük fədakarlıqla dayanır.

**Nail ƏSGƏROV**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 582